2020.- 9 oktyabr.- S.18.

iki sahil

# Bayrağımız qürurumuz, qələbə müjdəli sevincimizdir

Ermənistanın işğalı altında qalan torpaqlarımızın azad olunması uğrunda ölüm-qalım savaşı aparan Milli Ordumuzun uğurlarına sevincini avtomobillərdə, eyvanlarda, meydanlarda üçrəngli bayrağımızı dalğalandırmaqla bildirən Azərbaycan xalqı bununla tam qələbəyə də inamını ifadə edir. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını bərpa edən, müstəqilliyimizi əbədiləşdirən ulu öndər Heydər Əliyev inanırdı ki, gün gələcək bayrağımız Ermənistanın işğal etdiyi bütün torpaqlarımızda ucaldılacaq. “Azərbaycan bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa , dövlətə olan məhəbbətə bərabər olsun” söyləyən ulu öndər Heydər Əliyev inanırdı ki, müstəqilliyimizi, varlığımızı təsdiqləyən, qürur mənbəyimiz olan üçrəngli bayrağımız fərəhli anlarımızın əsas şahidi kimi daim yüksəklərdə dalğalanacaq. Rənglərinin dili ilə türkləşən, müasirləşən, islami dəyərlərə bağlılığını bildirən bayrağımız qalibiyyət rəmzi kimi əsgərlərimizin azad etdiyi torpaqlarda yenilməzlik simvoluna çevrilib.

İşğaldan azad edilən kəndlərdə, strateji yüksəkliklərdə dalğalanan bayraqlarımızın hər biri qəhrəmanlıq salnaməmizə şəhidlərimizin qanı ilə yazılan zəfər müjdəsidir. Milli Qəhrəman Mübariz İbrahimovun düşmənə qan uddurduğu məntəqədə bayrağımızı ucaldan və bununla qürur duyan əsgərlərimizin hər biri Mübarizlərin davamçılarıdırlar. Qələbəyə çağırış olan üçrəngli bayrağımızın Türkiyənin qırmızı, aylı, ulduzlu sancağı ilə qoşa dalğalanması isə türk həmrəyliyinin nişanəsidir. Azərbaycan əsgərinin uğurlarına sevinən, kədərinə şərik olan, ölkəmizə hər cür dəstək göstərən qardaş ölkədə də Azərbaycan bayraqlarının dalğalanması, həmrəylik mərasimlərinin keçirilməsi Milli Ordumuzu daha da qürurlandırır.

Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda Azərbaycan-Türkiyə birliyinin əbədi, sarsılmaz olduğunu “Azərbaycan Ordusu döyüş meydanında öz gücünü, məharətini göstərmişdir. Bu gün Azadlıq meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək Azərbaycanın dövlət bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır” söyləyən Prezident İlham Əliyev Ali Baş Komandan kimi də bayrağımızın işğal altında qalan bütün torpaqlarımızda dalğalanacağı günün gələcəyini bildirmişdi.



Cəbhəboyu davam edən döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endirən qüdrətli ordumuzu anbaan qələbəyə yaxınlaşdıran zəfərlərin ilk müjdəçisi də elə düşmənə göz dağı olan bayrağımızdır. Haqqa qovuşan igidlərimizin uğrunda qurban getdikləri torpağa bayraqlara sarılaraq əmanət edilməsi də şəhidlərimizi müqəddəsləşdirir,

Prezident, Ali Baş Komandan İlham Əliyevin “Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq” sözləri bu gün həqiqətə çevrilir. Düşmən üzərində tam qələbə xəbərini də xalqımıza Xankəndidə dalğalanacaq bayrağımız bildirəcək. O günə isə az qalıb. Həmin gündə sevincimizə hər an şərik olan Türkiyənin də bayrağı dalğalanacaq. Ölməz şairimiz Bəxtiyar Vahabzadənin yazdığı kimi:

*Birdir bizim hər halımız,*  
*Sevincimiz-məlalımız.*  
*Bayraqlarda hilalımız,*  
*Azərbaycan-Türkiyə.*

**Xuraman İsmayılqızı,**  
***“İki sahil”***